*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 oktyabr 2014-cü il № 82 (1899) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Almaniya Federativ Respublikasının xarici işlər üzrə federal naziri Frank-Valter Ştaynmayeri qəbul edib.***

***Almaniyanın xarici işlər üzrə federal naziri Frank-Valter Ştaynmayerin ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin siyasi, iqtisadi, təhlükəsizlik və digər istiqamətlərdə inkişafı və görüləcək işlərlə bağlı müzakirələrin aparılması üçün yaxşı fürsət yaratdığını qeyd edən dövlətimizin başçısı əməkdaşlığımızın geniş sahələri əhatə etdiyini vurğuladı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiçin etimadnaməsini qəbul edib.***

***Görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyətindən məmnunluq ifadə edildi, əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Avropa Atıcılıq Konfederasiyasının və Rusiya Federasiyası Atıcılıq İttifaqının prezidenti Vladimir Lisini qəbul edib.***

***Görüşdə idmanın müxtəlif növləri, o cümlədən atıcılıq idmanı üzrə ölkəmizdə yüksək standartlara uyğun infrastrukturun yaradıldığı qeyd edildi, mötəbər beynəlxalq idman yarışlarının, elə də bu günlərdə Azərbaycanda atıcılıq üzrə Dünya kubokunun final mərhələsinin keçirilməsinin önəmi vurğulandı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilmanı qəbul edib.***

***Görüşdə Azərbaycan ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Oktyabrın 27-də Parisdə, Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü olub.***

***Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Enerji, aerokosmik sənaye, hərbi-texniki, təhsil, metro inşaatı və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edildi. "Cənub" dəhlizi enerji layihəsinin reallaşması ətrafında fikir mübadiləsi aparıldı.***

***Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların vəziyyəti, münaqişənin beynəlxalq hüquq normalarına əsasən, bununla bağlı indiyədək qəbul edilmiş sənədlərə uyğun ədalətli həlli ətrafında fikir mübadiləsi aparıldı. Münaqişə ilə bağlı status-kvonun dəyişilməsinin, işğal olunmuş ərazilərin azad edilməsinin zəruriliyi vurğulandı.***

AzərTAc-ın materialları əsasında

# Müdafiə naziri cəbhəboyu yerləşən hərbi hissələrin döyüşə hazırlıq səviyyəsini yoxlayır



***Azəbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 27-dən başlayaraq cəbhə bölgəsində yerləşən hərbi hissələrin döyüşə hazırlıq səviyyəsinin yoxlanılmasını həyata keçirir.***

Müdafiənin ön xəttində yerləşən hərbi hissələrə baş çəkən Müdafiə Nazirliyinin rəhbərliyi görülən işlər, şəxsi heyət tərəfindən döyüş tapşırığının yerinə yetirilməsinin vəziyyəti, hərbi qulluqçuların vəzifə borclarını bilməsi və qarşıya qoyulan tapşırıqların praktiki cəhətdən icrası ilə maraqlanıb.

Artilleriya hərbi hissəsində qoşunların silahlanmasına yeni daxil edilmiş müasir texnikalara baxış keçirərkən onların effektiv istifadəsi, döyüş imkanları və tapşırıqları bir daha dəqiqləşdirilib.

Əsgər yeməkxanasında nahar edən Müdafiə naziri hərbi qulluqçuların mənəvi-psixoloji durumu və sosial şəraiti ilə maraqlanıb. Hərbi tibb müəssisəsində müalicə olunan hərbi qulluqçularla görüşən nazir onların qısa müddətdə sağaldılaraq xidmət yerlərinə qayıtmaları barədə həkim heyətinə göstərişlərini verib.

Hərbi hissələrin ərazisində təmir-tikinti işləri aparılan obyektlərdə və əsgər kazarmalarında olan Müdafiə naziri şəxsi heyətin məişət şəraitinin daha da yaxşılaşdırılması və qışa hazırlığın keyfiyyətli təşkili ilə bağlı müvafiq tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Azərbaycanın İtaliyadakı səfirinin "İntelligo News"da Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müsahibəsi yerləşdirilib

***Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqov "İntelligo News" xəbər saytına verdiyi müsahibəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışıb.***

Münaqişənin kökləri, səbəbləri, onun nizamlanmasına dair danışıqlar prosesi barədə ətraflı məlumat verən səfir bildirib ki, hələ 1988-ci ildə başlayan gərginlik silahlı münaqişə ilə nəticələndi. Torpaqlarımızın 20 faizi işğal olundu və bir milyondan çox soydaşımız Ermənistandakı və Azərbaycandakı doğma yurd-yuvalarından didərgin düşdü. Münaqişənin qanlı nəticələrindən zərər çəkmiş insanlarla yanaşı, konseptual cəhətdən onun digər qurbanı beynəlxalq hüququn tətbiq edilmə təcrübəsi olub. BMT-nin və digər beynəlxalq təşkilatların Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair qərarları və sənədlərinə hələ də əməl olunmur. Ermənistan tərəfindən "dini toqquşma" kimi dünyaya təqdim edilən bu silahlı münaqişə nəticəsində hazırda Cənubi Qafqaz regionunda vəziyyət gərgin olaraq qalır. Bu baxımdan, yaxın günlərdə Fransa Prezidenti Fransua Ollandın vasitəçiliyi ilə Parisdə keçiriləcək Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü böyük əhəmiyyət daşıyır.

Səfir diqqətə çatdırıb ki, ATƏT-in Minsk prosesində Avropa İttifaqının bir neçə üzv ölkəsinin iştirak etməsinə baxmayaraq, münaqişənin nəticələrinin aradan qaldırılması və işğal olunmuş ərazilərin sosial-iqtisadi cəhətdən bərpası istiqamətində qurum heç vaxt ölkəmizə yardım göstərməyib. Münaqişənin nizamlanması ilə bağlı Azərbaycanın mövqeyinin birmənalı olduğunu vurğulayan V.Sadıqov bildirib ki, Ermənistan silahlı qüvvələri ölkəmizin işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Rəsmi Bakı Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verməyə və bu bölgənin iqtisadi inkişafı üçün tədbirlər həyata keçirməyə hazırdır. Bu, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ən böyük güzəşti ola bilər. Lakin, bu məsələ yalnız Azərbaycan torpaqları işğaldan azad edildikdən və azərbaycanlıların öz yurdlarına qayıtmasından sonra həllini tapa bilər. Münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olan Azərbaycanın, eyni zamanda, torpaqlarını hərb yolu ilə də azad etmək haqqı vardır. Bu da mövcud beynəlxalq münasibətlər təcrübəsi ilə tənzimlənən özünümüdafiə hüququ üzərində qurulmuş bir mövqedir.

**AzərTAc**

## Fransanın nüfuzlu "Le Fiqaro" qəzetində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən yazı verilib

Parisdə gündəlik nəşr olunan nüfuzlu "Le Fiqaro" qəzetiniun 27 oktyabr nömrəsində "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Yeliseydə təqdim olunur" sərlövhəli məqalə dərc olunub.

Məqalədə, Prezident Fransua Ollandın cari ilin may ayında Cənubi Qafqaz ölkələrinə səfəri zamanı Ermənistan və Azərbaycan prezidentlərini Parisdə görüşə dəvət etdiyi xatırlanır.

Müəllif Reji Jente yay ayından Dağlıq Qarabağ regionu ətrafında vəziyyətin daha da gərginləşdiyi vaxtda prezidentlərin masa arxasında danışıqlar aparmalarının vacibliyini diqqətə çatdırıb. Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində 30 mindən artıq insanın öldüyünü xüsusi vurğulayıb. Müəllif qeyd edib ki, Sovetlər dövründə Ermənistanın birbaşa hərbi müdaxiləsi ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayonu sepatistlər tərəfindən işğal olunub. Ermənistan rəhbərliyinin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində işğal olunan Azərbaycanın əzəl torpaqlarında yalnız ermənilər yaşayır və onların elan etdikləri qondarma "respublika" heç bir beynəlxalq təşkilat və ölkə tərəfindən tanınmır.

Məqalədə Qafqaz üzrə mütəxəssis Tomas de Vaalın sözlərinə istinadən Azərbaycan Ordusunun regionda ən güclü orduya çevrildiyi xüsusi vurğulanıb.

Sonda Tomas de Vaalın fikirlərinə istinadən bildirilir ki, Azərbaycan və Ermənistan prezidentlərinin Parisdəki görüşləri Fransanın həmsədr ölkə kimi mövqelərinin gücləndirilməsinə xidmət edir.

**AzərTAc**

# Müdafiə naziri mühəndis-istehkam hərbi hissəsinin döyüşə hazırlıq səviyyəsini yoxlayıb

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin daim diqqət və qayğısı əhatəsində olan Silahlı Qüvvələr müasir döyüş texnikası ilə təmin edilir və davamlı olaraq hərbi hissələrdə təmir-tikinti işləri aparılır.***



Oktyabrın 25-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov mühəndis-istehkam hərbi hissəsində olaraq aparılan işlərin vəziyyəti ilə maraqlanıb.



Müdafiə naziri qısa müddət ərzində hərbi hissənin ərazisində həyata keçirilən işlərlə tanış olub, şəxsi heyətin rahat, isti şəraitdə yerləşməsi və qidalanması üçün əsgər kazarmalarını və yeməkxanada yaradılmış vəziyyəti yoxlayıb.

Sonra hərbi hissənin mühəndis-istehkam parkında döyüş texnikasının hazırlığına baxış keçirilib. Bildirilib ki, müharibə şəraitində hücum edən qoşunlarımızın maneəsiz, düşmənin müdafiə xəttini yararaq onun fortifikasiya qurğularını qısa zamanda asanlıqla keçməsi mühəndis-istehkam hərbi hissələrinin qarşısında duran əsas döyüş tapşırıqlarından biridir.

Bu məqsədlə Ali Baş Komandan cənab İlham Əliyevin göstərişinə əsasən, mühəndis-istehkam hərbi hissələrinin yerinə yetirdikləri xüsusiyyətlər, onların texniki baxımdan təkmilləşdirilməsi və döyüş potensialının artırılması üçün yeni və müasir mühəndis-istehkam texnikası alınaraq qoşunların təminatına verilib.

Sonda Müdafiə naziri döyüş hazırlığının və nizam-intizamın gücləndirilməsi, həmçinin hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması barədə müvafiq göstəriş və tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Oktyabrın 28-dən 30-dək Budapeşt şəhərində (Macarıstan) ilkin tibbi yardım zabitlərini hazırlayan təlimatçılar üçün simpozium və Doha şəhərində (Qətər) "Yırtıcı Şahin - 2015" təliminin əsas planlaşdırma konfransı keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***27 oktyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 22 dəfə pozulub.

Erməni silahlı bölmələri Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***28 oktyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 21 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Kəngərli, Cəvahirli, Sarıcalı, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Xocavənd rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Regional sülh və təhlükəsizlik üçün ən başlıca təhlükə Ermənistanın Azərbaycana qarşı təcavüzüdür

Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Hikmət Hacıyev Ermənistan prezidenti Serj Sarkisyanın "New York Times" qəzetinin Ermənistana aid reklam bölməsindəki 23 oktyabr tarixli müsahibəsinə şərh verib.

H.Hacıyev deyib ki, ifrat millətçi, irqçi və şovinist xarakterli çıxışlar edərək əslində Ermənistanın öz daxilində mövcud olan problemlərdən fikri yayındırmağa çalışan və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə əngəl yaratmağa çağıran Ermənistan prezidenti Serj Sarkisyana aşağıdakıları xatırlatmaq istərdik:

"Serj Sarkisyanın dövlət idarəçilik metodu bütün meyarlar üzrə hərbi diktaturanın ən ifrat nümunəsidir. Ermənistan ictimaiyyəti bu idarəçilik üsulunu və siyasi sistemi hətta kriminal-oliqarx xarakterli hərbi diktatura rejimi adlandırır.

Ermənistanda 2008-ci il prezident seçkilərindən sonra dinc nümayiş iştirakçılarının odlu silahdan atəşə tutulmasını əmr edən və erməni müxalifətinin iddia etdiyi kimi "kriminal qaydalar" əsasında öz rəqiblərinin qətlini sifariş edən Serj Sarkisyanın yürütdüyü siyasət nəticəsində Ermənistan əhalisinin 40 faizindən artığı ifrat yoxsulluq səviyyəsində yaşayır və demoqrafik fəlakət astanasında olan bu ölkənin xarici borcları ümumi daxili məhsulu bir neçə dəfə üstələyir.

İnsanlığa qarşı cinayət əməllərinə görə bilavasitə məsuliyyət daşıyan və faşizm ideologiyası əsasında irqçi "etno-dini Nzhdehiszm"i - "erməni xalqının etnik üstünlüyü"nü rəhbərlik etdiyi respublika partiyasının və dövlət siyasətinin hakim irqçi ideologiyası elan edən, öz ölkəsinin gənclərini qonşu xalqlarla gələcək müharibəyə səsləyən Serj Sarkisyanın sülhdən danışmağa nəinki siyasi-hüquqi, hətta əxlaqi-mənəvi haqqı belə yoxdur.

Regional sülh və təhlükəsizlik üçün ən başlıca təhlükə Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı hərbi gücdən istifadə edərək ərazisinin 20 faizini işğal etməklə Ermənistan BMT Nizamnaməsini, işğal olunmuş ərazilərdə və Ermənistan ərazisində Azərbaycan xalqına qarşı qanlı etnik təmizləmə və insanlığa qarşı cinayət törətməklə beynəlxalq humanitar hüququ kobud şəkildə pozub. İşğal, təcavüz və insaniyyətə qarşı cinayət əməllərinə görə müasir beynəlxalq hüquqda dövlətlərin və hətta fərdlərin məsuliyyəti aydın şəkildə müəyyən olunub. Bu əməllərə görə Ermənistan və onun indiki rəhbərliyi birbaşa məsuliyyət daşıyır.

BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini təhrif etməyə çalışan Ermənistan prezidentinin yaddaşını bir daha təzələmək istərdik. BMT baş katibinin bu qətnamələrlə əlaqədar 1994-cü il 31 oktyabr tarixli SGSM5460 saylı bəyanatında deyilir: "BMT-nin mövqeyi Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələrdə əks olunan dörd prinsipə əsaslanır. Birinci prinsip Azərbaycanın ərazi bütövlüyüdür. İkinci prinsip beynəlxalq sərhədlərin toxunulmazlığıdır. Üçüncü prinsip ərazi əldə etmək üçün zordan istifadənin qəbuledilməzliyidir. Dördüncü prinsip bütün xarici qoşunların dərhal və qeyd-şərtsiz işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasıdır".

Azərbaycan tərəfindən böyük sülh sazişinin imzalanması və strukturlaşdırılmış əsasda və predmetli şəkildə danışıqların aparılmasının gündəmə gətirilməsi ilə çıxılmaz vəziyyətə düşən Ermənistan prezidenti və xarici işlər naziri son günlər yalnız bəhanələr və əsassız ittihamlara üz tutub. Məqsədyönlü şəkildə texniki məsələləri gündəmə gətirməklə Ermənistan diqqəti münaqişənin əsl mahiyyətindən yayındırmağa çalışır.

Sözdə "münaqişənin sülh yolu ilə həllini", "ATƏT-in Minsk qrupunun həmsədrlərinin səylərini" dəstəklədiyini deyən Ermənistan real olaraq münaqişənin həlli üçün heç bir addım atmayıb. Münaqişənin həllinə nail olmaq üçün isə ilk növbədə Ermənistan öz silahlı qüvvələrini işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmalıdır.

*Təlim*

# Artilleriyaçıların uğurlu döyüş sınağı

***Top, minaatan heyətlərinin döyüş hazırlığı, onların təlim bacarıqları bizə yaxşı tanışdı. Hər dəfə ezamiyyətlərdə artilleriyaçıların məşğələ yerində olur, onların nəyə qadir olduqları ilə dərs zamanı tanış oluruq. Bu dəfə isə həmin heyətlərlə öncədən planlaşdırılmış iki günlük döyüş atışlı atışın idarə edilməsi üzrə nəzarət təlimi keçirilirdi.***



Zabit Valeh Rəcəbov bildirdi ki, döyüş atışlı təlim yüksək səviyyədə təşkil olunub və Müdafiə Nazirliyinin Raket və Artilleriya Qoşunları Komandanının iştirakı ilə keçirilir. Çox keçmədi təlim yerinə gəldik. Burada bir sırada qurulmuş çadırlar, döyüş və yük maşınları üçün "kopanel"lər, mühafizənin təşkili məqsədilə qazılmış səngər və əlaqə yolları sanki döyüş meydanını xatırladır. Tələb və normalara uyğun hazırlanan komanda müşahidə məntəqəsi əraziyə uyğun maskalanıb. Təlimin qərargah rəisi zabit Anar Babayev düşərgənin tam döyüşə hazır vəziyyətdə olduğunu və bir azdan təlimin başlayacağını bildirdi.

Məşğələ rəhbəri zabit İslam Əmirağayev isə söhbətimizdə qeyd etdi ki, bu cür döyüş atışlı təlimlər hər tədris dövrü keçirilir. Artilleriya birləşmələrinin komandirləri və müavinləri təlimə cəlb olunublar. Çünki bu gün ancaq artilleriyaçılar döyüş öncəsi ərazi ilə tanış olmalı, məhv ediləcək hədəfləri aşkar etməyin yollarını müəyyən etməli və s. işlər üzərində çalışmalıdırlar.

Zabit İ.Əmirağayev daha sonra məşğələnin planlaşdırılmasından danışdı. O qeyd etdi ki, məşğələ sənədlərinin işlənib hazırlanması, təlimin keçiriləcəyi sahədə ərazi kəşfinin aparılması, bölmələrin dərsə hazırlıq vaxtı, atəş tapşırığının yerinə yetirilməsi kimi vacib amillər mütləq nəzərə alınmalıdır. Bunun üçün təlimdə iştirak edən hər kəsin müfəssəl bilik və bacarıqlara malik olması vacibdir. Belə ki, bölmələrə yay təlim-tədris dövrü ərzində keçirilən mövzu və məşğələlər imkan verir ki, mənimsədikləri bilik və bacarıqlardan faydalanaraq təlimi uğurla başa vursunlar.

## "Burada heç kim imtahan olunmur..."

Zabit A.Babayev Raket və Artilleriya Qoşunları Komandanına və təlimə cəlb olunan zabitlərə hərbi qaydada təqdim olundu. Sonra o, atışlı döyüşün idarə edilməsi təliminin ardıcıllığını məruzə etdi. Zabit döyüşün niyyət və məqsədlərini izah edərək bildirdi ki, bu sınaq artilleriya bölmələrinin idarə olunmasını, döyüş hazırlığının uzlaşdırılmasını, vəzifəli şəxslərin atış və atəşi idarə etmə üzrə vərdişlərini təkmilləşdirmək məqsədi daşıyır. Müasir ümumqoşun döyüşündə artilleriya bölmələri silahın və döyüş texnikalarının imkanlarından yararlanaraq atəş tapşırıqlarını müstəqil şəkildə vaxtında və dəqiq yerinə yetirməyi öyrədir. Söz yox ki, şəxsi heyət atəş mövqeyindən və idarəetmə məntəqəsində məşq etməklə səhra vərdişlərini daha da artırır. Bu cür təlimlər gələcəkdə bölmələrin döyüşdə idarə olunmasını daha da asanlaşdırır.



Məruzəni dinlədikdən sonra zabit Zahid Hüseynov komanda müşahidə məntəqəsinə gəldi. Təlimə cəlb olunan zabitlərə bildirdi ki, burada heç kim imtahan olunmur, təlimin keçirilməsi yalnız idarəetmə vərdişlərinin artırılması məqsədini daşıyır. Onun sözlərinə görə, motoatıcı birləşmənin tərkibində artilleriya bölmələrinin idarə olunması da təlimin vacib elementlərindəndir.

Sonra zabit Sarı Xəlilov öncə ərazidə imitasiyanın aparılmasını, oriyentirlərin təyin edildiyini bildirdi. Tabeliyində olan artilleriya bölmələrinə isə döyüş tapşırığının onları ərazi və məhv ediləcək hədəflərlə tanışlıqdan sonra verilməyin doğru olduğunu söylədi.



Zabit İlqar Hüseynov ərazidə aparılan kəşfiyyat işləri ilə bağlı məlumat verdi. Motoatıcı birləşmənin tərkibində döyüşün aparılması, alınan və verilən komandaların dəqiqliyinin vacibliyini qeyd edən zabit Tərlan Mövlanov bütün bu amillərin bölmələrin idarə olunmasındakı rolundan ətraflı bəhs etdi.

## Ərazinin imitasiyası və hədəfə olan məsafənin təyini

Artilleriyaçılar qarşıda duran döyüş tapşırıqlarını yerinə yetirmək üçün düşmənin ehtimal olunan ərazilərini müəyyən edir. Əsas sağ-sol cinahları və mərkəz olmaqla həmin əraziləri relyefə uyğun şərti adlarla adlandırırlar. Daha sonra oriyentirlər məsafələrə uyğun nömrələnir. Aşkar olunan və məhv ediləcək hədəflər nəzarətə götürülür. Bununla da ərazidə imitasiyanın aparıldığı hesab olunur.

Zabit Fuad Mirzəyevin sözlərinə görə, kəşf edilən ərazidə şərti düşmənin yerləşdiyi mövqelər əsas hədəf götürülür. Burada bussolçular hədəfə olan məsafəni müəyyən edir. Məsafəölçən kiçik çavuş Vüsal Müslümov isə deyir ki, düşmənin yerləşdiyi ərazidə partlayış baş verdikdə, həmin mövqeyə qədər olan məsafəni də daha dəqiq göstərmək olur.

Topçularda belə bir cihaz da var ki, AİC (artilleriyanın idarəetmə cihazı) adlanır. Əsgər Əli Əliyev bu cihaz vasitəsilə toplardan hədəfə olan məsafəni ölçür. Əsgərin hərbi xidmətə gəlməsindən cəmi üç ay keçməsinə baxmayaraq cihaz vasitəsilə hesablamaların aparılmasını dolğun şəkildə öyrənib. Zabit İlqar Hüseynov bildirdi ki, qısa müddətdə yetərincə bilik və bacarıqlara malik olduğu üçün biz bu əsgəri döyüş atışlı təlimə də cəlb etmişik.

Məhv ediləcək hədəflər və onlara olan məsafələr dəqiqləşdirildi. Bundan sonra isə sonuncu məlumatlar toplara ötürüldü.

Təlimin növbəti mərhələsi atışla keçirildi. Göstərilən hədəflər və onlara olan məsafə tam dəqiqliklə hesablandığı üçün atışın nəticələri müsbət oldu. Sonda zabit Zahid Hüseynov motoatıcı birləşmənin tərkibində artilleriyanın döyüş atışlı atəşin idarə olunması təliminin nəticələrindən razı qaldığını və bundan sonra da belə təlimlərin keçirilməsinin vacibliyini qeyd etdi.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrimizdə təşkilat-səfərbərlik işinin təkmilləşdirilməsi diqqət mərkəzindədir

## Bu sahədə inkişaf etmiş dövlətlərin ordu quruculuğu təcrübəsindən geniş istifadə edilir

Polkovnik Hikmət XALIQOV,
Müdafiə Nazirliyi Təşkilat-Səfərbərlik İdarəsinin rəisi



***Hazırkı mərhələdə ordu quruculuğunun bu və ya digər istiqamətlərdə inkişafını təkmilləşdirmək məqsədilə dövlətimizin rəhbərliyi, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən məqsədyönlü siyasət həyata keçirilir. Əlbəttə, dövlətimizin düşünülmüş ordu quruculuğu siyasəti artıq öz bəhrəsini verib. Yəni, bu gün dünyanın tanınmış hərbi ekspertləri də birmənalı şəkildə qeyd edirlər ki, Azərbaycan Ordusu qısa zaman ərzində mükəmməl uğurlara imza ataraq regionun qüdrətli ordusuna çevrilib.***

Orduda təşkilati-ştat işlərinin əsas mahiyyəti barədə bir qədər məlumat vermək istərdim. Hərbi birlik, birləşmə, idarə və təhsil müəssisələrinin təşkilati strukturunun təkmilləşdirilməsi yalnız bir önəmli məqsədə - döyüş və səfərbərlik hazırlığının artırılmasına, qarşıya qoyulan tapşırıqların daha məhsuldar şəkildə icra edilməsinə yönəldilir. Bizim idarə tərəfindən bu məqsədlə vaxtaşırı hərbi qurumların təşkilati fəaliyyəti yoxlanılır, bəzən qarşıya çıxan irad və nöqsanların aradan qaldırılması üçün səmərəli tədbirlər həyata keçirilir. Ümumiyyətlə, təşkilati-ştat strukturunun təkmilləşdirilməsi Silahlı Qüvvələrimizin inkişaf xəttinin əsas istiqamətlərindən biri olmaqla hərbi birlik və birləşmələrin, digər hərbi qurumların, həmçinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin döyüş hazırlığının yüksək səviyyədə saxlanmasını təmin edir.

Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən irəli sürülmüş ordu quruculuğu strategiyasını inkişaf etdirmək, bu sahədə qarşıya qoyulan tövsiyə və tapşırıqları vaxtında və səmərəli formada yerinə yetirmək üçün inkişaf etmiş dövlətlərin ordu quruculuğu təcrübəsindən yararlanmağa önəm veririk. Cari ildə idarəmizin kollektivi tərəfindən həyata keçirilmiş işlərlə bağlı bildirmək istərdim ki, Silahlı Qüvvələrin bütün təbəqəli qərargahlarının, hərbi birlik və birləşmələrin, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin, hərbi idarə və qurumların təşkilat-ştat quruluşunda əsaslı dəyişikliklər edilib. Şübhəsiz ki, ordu rəhbərliyinin bilavasitə nəzarəti ilə aparılan ştat dəyişiklikləri həm orduda idarəetmənin müasir tələblər səviyyəsində təkmilləşdirilməsinə, həm də Silahlı Qüvvələrin saxlanılması üçün dövlətin maliyyə xərclərinə qənaət edilməsinə istiqamətləndirilir. Azərbaycan Ordusunun döyüş hazırlığının artırılması məqsədilə həyata keçirilən belə tədbirlər hazırkı mərhələdə də məqsədyönlü formada davam etdirilir.

Bildiyiniz kimi, son vaxtlar orduda aparılan islahatlar Azərbaycan cəmiyyətində də müsbət qarşılanır. Vətənimizin müdafiə imkanlarının güclənməsində maraqlı olan hər bir ölkə vətəndaşı artıq ordumuzun hərbi gücünə inanır və ümid edir ki, Azərbaycan Ordusu istənilən anda Ali Baş Komandanın döyüş əmrini icra etməyə qadirdir. Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qruplarının təxribatlarına dəfələrlə qətiyyətli cavab verən vətənpərvər döyüşçülərimizin cəbhə xəttindəki son uğurları da xalqın öz ordusuna, öz əsgərinə inamını artırıb. Bu faktı Müdafiə Nazirliyinin ünvanına gələn minlərlə vətəndaşın minnətdarlıq dolu müraciətlərində də hiss etmək mümkündür. Yüksək fərəh hissi ilə qeyd etməyi özümə borc bilirəm ki, vətəndaşlarımızın hərbi peşələrə, orduda xidmət etməyə marağı son vaxtlar daha da artıb. Yeri gəlmişkən, cari dövrdə ordunun ştat strukturlarına edilmiş dəyişikliklər arxa cəbhə təminatlı bir çox vəzifələrdə mülki şəxslərin işlə təmin edilməsinə geniş imkanlar yaradıb. Təkcə bir faktı misal çəkmək istərdim ki, bu gün əksər hərbi hissələrimizin əsgər yeməkxanalarında xidməti personal mülki işçilərdir və onların arasında təcrübəli aşpaz qadınlar da vardır.

> General-polkovnik Zakir HƏSƏNOV:
>
> *"Ordu ona aid olmayan əlavə funksiyalardan - müxtəlif təsərrüfat, mühafizə və qulluqetmə tapşırıqlarından mərhələlərlə azad edilir. Şəxsi heyətin sırf döyüş hazırlığı məsələlərinin həllində tam iştirakı təmin edilir".*

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ötən çıxışlarının birində qeyd edildiyi kimi, "ordu ona aid olmayan əlavə funksiyalardan - müxtəlif təsərrüfat, mühafizə və qulluqetmə tapşırıqlarından mərhələlərlə azad edilir. Şəxsi heyətin sırf döyüş hazırlığı məsələlərinin həllində tam iştirakı təmin edilir".

Yeri gəlmişkən bir vacib məqamı qeyd etmək istərdim ki, bu cür tədbirlər hərbi hissə və bölmələrdə əsgəri intizamın yüksəlməsinə, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin saflaşmasına və sosial ədalət prinsipinin möhkəmlənməsinə zəmin yaradır. Artıq bir sıra bölgələrdə əsgərlərin məişəti ilə bağlı tapşırıqların icrası mülki şəxslərə həvalə edilib. Xüsusən əsgər yeməkxanalarında və camaşırxanalarda qadınların işə cəlb edilməsi müsbət qarşılanır və belə xidmət sahələrində tapşırıqların daha keyfiyyətlə yerinə yetirilməsinə imkan verir.

Bu il ərzində Silahlı Qüvvələrimizdə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət etmək üçün 10 mindən artıq vətəndaş xidmətə qəbul edilib. Onlardan 300 nəfərdən çoxu qadın hərbi qulluqçulardır. Qeyd olunan statistik göstəricilər ölkənin gündən-günə artan iqtisadi uğurları nəticəsində hərbi potensialımızın daha da güclənməsini və ordumuzun yetərli uğurlara imza atdığını deməyə əsas verir.

Azərbaycanın sərhədboyu rayonlarında yaşayan və əsgəri xidmətlərini şərəflə başa vurmuş gənclərimiz böyük həvəslə yenidən talelərini hərbə bağlayırlar. Belə gənclərin ön xətdəki bölmələrdə əsasən hərbi sürücü və manqa komandiri vəzifələrində xidmətlərini davam etdirməsi bir tərəfdən də bölgələrdə böyüməkdə olan nəslin vətənpərvərlik ruhunun yüksəlməsinə səbəb olur. Şübhəsiz, vətəndaşların müddətdən artıq həqiqi hərbi xidmətə cəlb edilməsində bir sıra vacib şərtlərə əməl edilir. Onlar hərbi tibb müəssisələrində ciddi tibbi müayinədən keçirilir, yalnız fiziki-psixoloji cəhətdən sağlam olanlar hərbi vəzifələrə təyin edilirlər. Öncə müvafiq müddətə təlim kurslarına cəlb edilən hərbi vəzifəlilərlə hazırlıq keçirilir, onların hərbi bilik və vərdişləri təkmilləşdirilir. Əvvəlki dövrlə müqayisədə vətəndaşların hərbi qulluğa götürülməsində süründürməçilik hallarına şərait yaradan amillər aradan qaldırılıb. İndi hər kəs yaşadığı bölgələrə uyğun olaraq hərbi komandanlıqlara müraciət edirlər ki, bu da əlavə çətinliklər yaratmır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu ilin avqustunda Ağdam rayonuna səfəri zamanı cəbhə xəttindəki hərbi hissəyə getmiş və döyüşçülər qarşısında çıxışında ordumuzun hərbi qüdrətinin gücləndiyini qeyd edərək son zamanlar orduda həyata keçirilən islahat və dəyişikliklərin əhəmiyyətli rolunu vurğulamışdı. Ali Baş Komandanımız qeyd etmişdi ki, aparılan səmərəli islahatlar ordunun hərbi gücünü daha da artırır və şəxsi heyəti qarşıda dayanan mühüm döyüş tapşırığını qətiyyətlə icra etməyə ruhlandırır. Qeyd etmək istərdim ki, dövlət başçısının bilavasitə tövsiyə və göstərişləri əsasında Silahlı Qüvvələrin səfərbərliyə hazır olmasını yoxlamaq məqsədilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli strukturları ilə birgə əməli tədbirləri həyata keçiririk. Vaxtaşırı ehtiyatda olan hərbi vəzifəlilərin təlimlərə cəlb edilməsi müharibə şəraitində olan bir dövlət üçün olduqca önəmlidir. Ötən genişmiqyaslı təlimdə təqribən 10 min nəfərə yaxın ehtiyatda olan hərbi qulluqçu təlimə cəlb olundu və onların hərbi vərdişlərinin artırılması məqsədilə lazımi tədbirlər həyata keçirildi. Hörmətli nazirimiz həmin təlimdəki proqram xarakterli çıxışında Ermənistan ordusu tərəfindən işğal edilmiş olan torpaqlarımızın tezliklə azad edilməsi üçün istənilən anda çevik hərbi əməliyyatların başlanması zərurətini vurğuladı və bütün ordu qüvvələrinin şəxsi heyətinə, həmçinin ehtiyatda olan hərbi vəzifəlilərə dəyərli göstəriş və tövsiyələrini bildirdi. Təcrübə göstərir ki, Silahlı Qüvvələrin birlik, birləşmə və əlahiddə bölmələrinin səfərbərlik işinə cavabdeh olan şəxslərin praktik vərdişlərinin artırılması baxımından da belə tədbirlər az əhəmiyyət daşımır. Gələcəkdə də Silahlı Qüvvələrimizin döyüşə hazırlığının yüksək səviyyədə saxlanılması, səfərbərlik zamanı ordunun hərbi vəzifəlilərlə və hərbi nəqliyyat vasitələri ilə komplektləşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanununa uyğun olaraq ehtiyatda olan hərbi qulluqçuların təlimlərə cəlb edilməsi və hərbi vərdişlərinin artırılması nəzərdə tutulub.

Ordu rəhbərliyini əmin etmək istərdim ki, idarəmizin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifə və tarşırıqları səmərəli şəkildə yerinə yetirmək üçün bacarıq və səylərini əsirgəməyəcəkdir.

# Örnək olan ömür

## Şəhid Aydın Abdullayev ölümündən sonra medalla təltif olunub



Qətiyyətli, cəsarətli hərbçi idi. Ön cəbhədə düşmənlə təmas xəttində xidmət edən gizir Aydın Abdullayevin vətənpərvərliyi haqqında hamı razılıq edərdi. Doğma Vətənini, yurdunu əsl övlad sevgisi ilə qoruyardı. 2013-cü il oktyabrın 25-də ürəyi Vətənlə döyünən igid bir hərbçimiz hərbi xidmətini yerinə yetirərkən cəbhə xəttində şəhid oldu.

Bu yaxınlarda şəhid gizirin xidmət yoldaşlarının, keçmiş əsgərlərinin, Suraxanı rayon İcra Hakimiyyətinin və Müdafiə Nazirliyinin nümayəndələrinin də iştirak etdiyi il mərasimində - anım günündə bir daha təsdiqləndi ki, xalq üçün, Vətən üçün, dövlətçilik üçün yaşanılan ömür unudulmur. Heç zaman unudulmaycaq da.

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik İslam Gəncəliyev qeyd etdi ki, Vətəni adına layiq səviyyədə sevmək hər kəsə nəsib olmur. Aydın Abdullayev belə bir sevgi ilə yaşadı, belə bir sevgi ilə xidmət etdi, belə bir sevgi ilə şəhid oldu. O, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə gizir A.Abdullayevin ölümündən sonra təltif edildiyi "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin atası Əmiraslan Abdullayevə təqdim edərək, bütün şəhidlərimizin, o cümlədən Aydının da qisasının alınacağına və torpaqlarımızın işğaldan azad ediləcəyinə əmin olduğunu bildirdi.

Gizir Aydın Abdullayevin xidmət yoldaşları, zamanında əsgəri olmuş gənclər bildirdilər ki, onun vətənpərvərliyini, cəsarətini, insani xüsusiyyətlərini heç zaman unutmayacaqlar.

Şəhid atası Ə.Abdullayev nə qədər ağır olsa da, oğlunun şəhid olmasından qürur hissi keçirdiyini, bu diqqətə görə ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirdi.

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Namiq PƏNAHLININDIR**

***"N" hərbi hissəsində şəxsi heyətə məşğələ keçən zabit lövhədə mövzuya aid olan zəruri izahları yazır və bu barədə əsgərlərə geniş məlumat verirdi. Əsgərlərin hər birinin qarşısında dəftərçə var. Onlar bu dəftərçələrə dərslərin mövzularını yazır, zabitin bu barədə dediklərini qeyd edirlər.***



# "Azərbaycan əsgəri adını daşımaqdan qürur duyuram"

- Bu gün biz zabitlərin üzərinə böyük vəzifələr düşür, - deyə əsgərlərə məşğələ keçən kapitan Eşqin Dadaşov bildirir. - Ən başlıca və ümdə vəzifəmiz xidmətdə ilk addımlarını atan gənc əsgərlərə hərbi bilik və vərdişləri aşılamaqdır. Üzərimizə düşən bu vəzifəni yerinə yetirmək üçün xidmətimizə məsuliyyətlə və diqqətlə yanaşırıq. Gənc əsgərlərə məşğələ keçmək üçün hərbi hissədəki tədris otaqları bütün avadanlıq və zəruri ləvazimatlarla təchiz olunub. Bütün bunlar isə məşğələlərin səmərəli keçirilməsini təmin edən başlıca amillərdir. Şəxsi heyətə məşğələ keçdikcə istifadəmizdə olan tədris vəsaitlərindən lazımınca bəhrələnməyə çalışırıq. Buna görə də əsgərlərimiz təlimlərdə yüksək döyüş hazırlığı nümayiş etdirirlər. Biz belə bacarıqlı əsgərlərimizlə fəxr edirik.

Dərs və məşğələlərdə fərqlənən əsgərlərlə də görüşürəm. İlk həmsöhbətim olan əsgər Ruslan Xankişiyev dedi ki, ordu sıralarına ürəklə gəlib. Əynimə əsgər forması geyindiyim gündən dərs və təlimlərdə, məşğələlərdə fəal iştirak edirəm. Artıq qısa müddət ərzində vacib hərbi bilik və vərdişləri mənimsəmişəm. Azərbaycan əsgəri adını daşımaqdan qürur duyuram.

- Vətənə əsgər olmaq hər birimizin vətəndaşlıq borcudur, - deyə əsgər Ayxan Quluyev söhbətimizə qoşuldu. - Bu gün Vətən torpaqlarını qorumaq biz oğulların çiyninə düşür. Üzərimizə düşən bu borcu, bu vətəndaşlıq vəzifəsini layiqincə və şərəflə yerinə yetirməyə çalışırıq. Dərs və məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə edərək hərbi bilikləri daha da dərindən mənimsəməyə can atırıq. Hərbi təcrübəmiz nə qədər yüksək olarsa, düşmən üzərində asanlıqla qələbə qazanarıq.

Əsgər Yaqub Atakişiyevin də ürəyi dolu idi. Söhbət zamanı o bildirdi ki, hələ orta məktəbdə oxuyanda tez-tez Şəhidlər xiyabanına gedib döyüşçülərimizin məzarını ziyarət edərdi. Elə o vaxtdan da ürəyində erməni işğalçılarına qarşı kin və nifrət oyanıb. Torpaqlarımızı zəbt etdiklərinə, oğul və qızlarımızı amansızcasına qətlə yetirdiklərinə görə erməni qəsbkarlarına nifrəti sonsuzdur. Ürəyi intiqam və qisas hissi ilə döyünür. Hərbi bilik və döyüş vərdişlərini dərindən öyrənir ki, döyüşlər zamanı həmişə öndə vuruşsun, yağılardan şəhidlərin intiqamını alsın.

Nümunəvi əsgərlərlə söhbətim başa çatır, şəxsi heyət isə yarımçıq qalmış məşğələsini davam etdirir. Budur, kapitan Eşqin Dadaşov yenə də lövhənin qarşısında dayanaraq dərsin mövzusunu danışır, ətraflı izah edir. Hərbi bilikləri öyrənməyə maraq göstərən əsgərlər isə diqqətlə komandirlərinə qulaq asır, qarşılarındakı dəftərçələrdə lazımi qeydlər aparırlar…

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Güclü qar Bolqarıstanın bir çox regionlarını iflic edib



Bolqarıstanın bir çox regionlarına güclü qar yağması nəticəsində yollar bağlanıb, elektrik xətləri qırılıb. Ölkənin cənub-qərb regionlarında qırmızı kod təhlükə dərəcəsi elan olunub.

Sofiyanın ətrafındakı regionlarda, Samokova və Troyan şəhərlərində 33 min ailə elektrik enerjisiz qalıb. Varna limanı güclü külək səbəbindən bağlanıb və gəmiləri qəbul etmir. Təbii fəlakətlə əlaqədar Bolqarıstanın Daxili İşlər Nazirliyində operativ əməliyyat qərargahı yaradılıb.

### Amerika məktəblərinin birində baş verən silahlı insident nəticəsində iki nəfər həlak olub




Vaşinqton ştatında Sietlin şimalında yerləşən Merisvill şəhərindəki məktəblərin birində atışma qeydə alınıb. Ətrafdakılara atəş açan yeniyetmə sonra intihar edib. AzərTAc BBC telekanalına istinadla xəbər verir ki, şahidlər Ceylen Frayberqin məktəb yeməkxanasına girərək əvvəlcə yoldaşlarına, daha sonra isə özünə atəş açdığını bildirirlər. Polisin məlumatına görə, cinayəti təkbaşına törədən qatilin açdığı atəş nəticəsində məktəbin şagirdlərindən biri həlak olub, daha iki oğlan və dörd qız isə yaralanıb. Yaralılardan üçünün vəziyyəti ağır olaraq qiymətləndirilir.

Məktəb futbol komandasının üzvü olan Ceylen Frayberqin sakit təbiəti ilə seçildiyi, eyni zamanda, köklü şimali amerikalıların "Tulalip Tribes" təşkilatının işlərində aktiv iştirak etdiyi də qeyd olunur.

### Rusiya Müdafiə Nazirliyi İsveçi regionda gərginliyi artırmaqda təqsirləndirir



Rusiya Müdafiə Nazirliyi Stokholm arxipelaqı rayonunda ölkəsinə məxsus sualtı qayığın olmasını növbəti dəfə təkzib edib. Rəsmi Moskva İsveçin xarici ölkəyə məxsus sualtı qayığın axtarış əməliyyatı çərçivəsində güc tətbiq etməyə hazır olması barədə səsləndirdiyi bəyanata cavab olaraq bu ölkəni regionda gərginliyi artırmaqda təqsirləndirib. AzərTAc BBC telekanalına istinadla xəbər verir ki, cümə günü Rusiya Müdafiə Nazirliyinin təmsilçisi İqor Konaşenkov İsveç hərbi idarəsinin soyuq müharibə ruhlu ritorika ilə qızışdırılan əsassız iddialarının regionda gərginliyin artmasına gətirib çıxardığını bildirib.

Xatırladaq ki, İsveç hərbçiləri güman edilən sualtı qayığın axtarışını havadan, dənizdən, həmçinin qurudan davam etdirirlər.

### Ermənistan əhalisinin yarıdan çoxu yoxsulluğun son həddində yaşayır



Parisdə erməni lobbisinin vəsaiti hesabına gündəlik nəşr olunan "Ermənistan xəbərləri" jurnalının növbəti nömrəsində "Ermənilərin yarıdan çoxu yoxsulluğun son həddində yaşayır" sərlövhəli məqalə dərc edilib. Məqalədə bildirilir ki, Ermənistan Sosioloji Araşdırmalar Mərkəzinin direktoru Ahoron Adibekyan keçirdiyi mətbuat konfransında ölkədə sosial sahədə islahatların düzgün aparılmaması, məmurların özbaşınalığı və korrupsiya hallarının tüğyan etməsi ucbatından əhalinin 43 faizinin yoxsulluğun son həddində yaşadığını bildirib. A.Adibekyan qeyd edib ki, 2012-ci ildə ölkə əhalisinin 32,4 faizi yoxsulluğun son həddində yaşayırdısa, 2014-cü ildə bu rəqəm 43 faizi ötüb. Məqalədə qeyd edilir ki, əlbəttə, dövlət statistika idarəsinə istinadən verilən bu rəqəm ölkədəki yoxsulların sayını tam reallıqla əks etdirmir. Əslində yoxsulluğun son həddində yaşayanların sayı bundan qat-qat artıqdır. A.Adibekyan 300 min uşağın valideyninin xaricdə yaşadığını və işlədiyini qeyd edib və bunun gələcəkdə çox ağır fəsadlar törədəcəyini bildirib.

### İŞİD qruplaşması bütün cəbhə boyu hücuma keçib



İŞİD qruplaşması ötən gün kürd silahlılarına qarşı bütün cəbhə boyu irimiqyaslı hücumlara başlayıb. Müdafiə olunmaqda çətinlik çəkən peşmərgələr dəstək gözləyir. AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, Amerika aviasiyası İŞİD-in nəzarətində olan neftayırma bazalarına və terrorçuların mövqelərinə zərbələr endirməkdə davam edir. Bu arada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qərbin fəaliyyətini tənqid edərək genişmiqyaslı hücumun kürdlər üçün nəzərdə tutulmuş silah və sursatın bir hissəsinin İŞİD-in əlinə keçməsi nəticəsində baş tutduğunu bildirib.

### Ankara peşmərgənin Kobaniyə keçidi üçün təhlükəsizlik dəhlizi açmağa razılıq verib




Türkiyə yaxın vaxtlarda İraq kürdlərindən ibarət silahlı dəstələrin (peşmərgə) Kobaniyə keçidinin koordinasiyasına başlaya bilər.

AzərTAc TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Ankara Kobaninin şimalında yerləşən Surcuq şəhərinin yaxınlığında peşmərgə üçün təhlükəsizlik dəhlizi açmağa razılıq verib. Təhlükəsizlik tədbirləri baxımından kiçik dəstələrə bölünən kürd döyüşçülərinin sərhədi mərhələlərlə keçəcəyi bildirilir.

Eyni zamanda Türkiyə kəşfiyyatı İraq tərəfindən Kobaniyə göndəriləcək silahlıların içərisində PPK yaraqlılarının olmaması üçün döyüşçülərin tam siyahısını tələb edib.

Çərşənbə günü Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan peşmərgələrin Kobaninin müdafiəsinə getməsinə qarşı çıxmadığını bildirsə də, şəhərin 200 minlik əhalisinin Türkiyəyə sığındığını və onun artıq heç bir strateji əhəmiyyət daşımadığını qeyd edib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Gələcəyin zabitləri ilə görüş



***Oktyabrın 27-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində veteranlarla görüş keçirilib. Mərasimdə veteranlar, məktəbin müəllim və kursantları, Silahlı Qüvvələrin hərbi qulluqçuları, ictimaiyyətin nümayəndələri iştirak ediblər.***

Son vaxtlar cəmiyyətdə Silahlı Qüvvələrimizə, ordunun gücünə inam artıb. Ayrı-ayrı ictimai təşkilatlar öz fəaliyyətlərini məhz ordu ilə xalqın birliyinə, gənc nəslin vətənpərvərlik duyğularının daha da dərinləşməsinə yönəldirlər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində vətənpərvərlik təmayüllü tədbirlər kursantların mənəvi hazırlığının yüksəlməsində müstəsna əhəmiyyətə malikdir. Əsas məqsəd milli-mənəvi dəyərlərimizi mükəmməl mənimsəmiş zabit kadrlarının hazırlanmasına yardımçı olmaqdır.

Hərbi təhsil ocağında respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının nümayəndələri ilə keçirilən görüşü giriş sözü ilə məktəbin rəisi polkovnik Füzuli Salahov açaraq qonaqları təqdim etdi və bildirdi ki, bu görüş kursantların yaddaşından illərlə silinməyəcək, veteranların tövsiyələri onların dünyagörüşünün və vətənpərvərlik tərbiyəsinin genişlənməsində mühüm amil olacaq.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev çıxışında hərbçi peşəsinin özəlliklərindən, şərəfli olmasından, bu peşəyə ümummilli liderimiz Heydər Əliyevin böyük dəyər verməsindən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində gördüyü möhtəşəm işlərdən, dövlətin gənclər siyasətindən danışdı. O, kursantlara tədrisdə fəal olmağı, Hərbi Nizamnamələrin tələblərinə ciddi əməl etməyi tövsiyə etdi.

Natiq çıxışında, həmçinin, Silahlı Qüvvələrimizin döyüş hazırlığının yüksək səviyyədə olduğunu qürur hissi ilə bildirdi.

Ehtiyatda olan general-mayor Dadaş Rzayev kursantların suallarını cavablandırdı. Onların "zabit başlıca olaraq hansı keyfiyyətlərə malik olmalıdır?" sualına "Vətənini, millətini, xalqını sevməlidir. Dövlətin bütün qanunlarına hörmətlə yanaşmalıdır. Əsgəri öz doğma balası kimi sevməlidir" deyə cavab verdi.





Tədbirdə çıxış edən veteranlar ordu quruculuğunun elmi əsaslarla inkişaf etməsindən, ən müasir silahlarla təchiz edilən Silahlı Qüvvələrimizin qüdrətinin artmasından danışdılar.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının şöbə müdiri Emin Həsənli çıxışında kursantlara hərbi təhsildə uğurlar arzuladı.

Təhsildə və ictimai işlərdə fəallıq göstərən beş kursanta veteranlar təşkilatının fəxri fərmanları təqdim edildi.

Sonda 35 saylı musiqi məktəbi şagirdlərinin iştirakı ilə konsert oldu.

**Rəşid FAXRALI,
"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrdə yunan-Roma və sərbəst güləş birincilikləri

***Güləş Azərbaycanda ən populyar milli idman növlərindən biridir. Ona görə güləş yarışları ölkəmizdə həm idmançılar arasında, həm də azarkeşlər arasında dərin maraqla izlənilir. Oktyabrın 21-də startı verilmiş və ayın 25-dək davam etmiş Silahlı Qüvvələrin yunan-Roma və sərbəst güləş növləri üzrə birincilikləri bu mənada istisna olmadı.***

Onu da qeyd edim ki, Silahlı Qüvvələr birinciliklərinin, o cümlədən güləş yarışlarının keçirilməsinin bu il nə az, nə çox - 15 ili tamam olur. 1999-cu ilin yanvarından Müdafiə nazirinin əmrilə ardıcıl olaraq idmanın müxtəlif növləri üzrə birinciliklər keçirilməyə başlanıb.

Təbii ki, idman yarışlarının keçirilməsi hərbi hissələrimizdə həm fiziki tərbiyənin, idmanın, sağlamlığın təbliği deməkdir, həm də şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi istiqamətində atılan zəruri addımlardandır.

Zaman keçdikcə həm birinciliklərin səviyyəsi, həm də idmançılar arasında yarışlara münasibət, idman mədəniyyəti dəyişirdi, onların göstərdikləri nəticələr yaxşılaşırdı. Ən vacib məqamlardan biri isə odur ki, ordumuzda şəxsi heyətin fiziki hazırlığı ilə məşğul olan mütəxəssislərin peşəkarlığı artırdı.

Birinciliklərin açılış və bağlanış mərasimləri "N" hərbi hissəsinin meydançasında nümunəvi orkestrin müşayiətilə təntənəli şəkildə yüksək səviyyədə təşkil edilmişdi. Birinciliklərdə iştirak etmək üçün ümumilikdə 160-a yaxın idmançı Silahlı Qüvvələrimizin müxtəlif hərbi hissələrini təmsil edirdi. Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasının beynəlxalq dərəcəli hakimləri yarışları idarə edirdi.

Mərasimdə çıxış edən Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik-leytenant Sadiq Paşayev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından idmançıları birinciliklərin başlanması münasibətilə təbrik etmiş və onlara yarışlarda uğurlar arzulamışdı.

Yarışlar Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman zalında keçirildi. Güləş döşəyinin üzərinə öncə yunan-Roma güləşçiləri çıxdılar. İki gün ərzində yunan-Roma güləşçiləri ən güclüləri müəyyən etmək üçün mübarizə apardılar və 7 çəkidə qalibləri müəyyən etdilər. Bir gün öncə isə mandat komissiyası öz işini görmüş, idmançıların hansı çəkidə mübarizə aparmasını müəyyənləşdirmişdi.

Fərdi yarışlarda 55 kiloqramda Vüsal Məmmədov (Bərdə) birinci, Aydın Məmmədov (Beyləqan) ikinci, Əvəz Abdullayev (Artilleriya) və Qurban Məmmədov (Piyadalar) üçüncü yerləri tutdular.

60 kiloqramda Fazil Zamanzadə (Şəmkir) birinci, Nemət Hacıyev (Bərdə) ikinci, İsa Şitiyev (C.Naxçıvanski adına Hərbi Lisey) və Namik Əliyev (Beyləqan) üçüncü oldular.

Növbəti çəki dərəcəsində (66 kq) Elnur Həsənov (Şəmkir), Şamo Süleymanlı (Bərdə), Sadiq Hüseynzadə (Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Tural Yunisli ( Beyləqan) birinciliyin medallarını öz aralarında bölüşdürdülər.

74 kiloqramda medallar dəsti Amil Əhmədova (Şəmkir), Məhəmmədhəsən Sadıqova (TTM), Sənan Məmmədova (HDQ) və Coşqun Məmmədliyə (Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) nəsib oldu.

Orxan İmanquliyev (Beyləqan), Təhmasib Ağayev (Bərdə), Pərviz Nərimanov (Şəmkir) və Şəmsəd Qasımov (HHQ) 84 kiloqramda bütün rəqiblərindən üstün oldular.

96 kiloqramda Ayaz Nəsibli (Şəmkir), Anar Babakişiyev (Bərdə), Muğan Əliyev (HHQ) və Etibar Quliyev (Mühafizəçilər) mükafatalayiq yerləri tutdular.



Nəhayət, ən ağır çəkidə (120 kq) Nizami Ağayev (Bərdə), Tural Umudov (Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), Fərid Mirzəyev (Şəmkir) və Rinat Məmmədov birinciliyin medallarını qazandılar.

Ümumi hesabda ən çox xal toplamış Bərdə komandası birinci, Şəmkir komandası ikinci, Beyləqan komandası isə üçüncü yeri tutdular. Kiçik komandalar arasında Təlim və Tədris Mərkəzi hamıdan yaxşı nəticə göstərdi.

Silahlı Qüvvələr birinciliklərinin növbəti iki günündə isə sərbəst güləşçilər birinciliyin mükafatları uğrunda mübarizə apardılar.

55 kiloqramda Paşa Paşayev (Bərdə) birinci, Cavidan Hüseynli (Beyləqan) ikinci, Rüstəm Seyidov (TTM) və Əliabbas Xasayev (Şəmkir) üçüncü yerləri bölüşdürdülər.

60 kiloqramda Vüsal Nəzərov (HHQ), Məhəmməd Lətifov (Şəmkir), Elvin Əliyev (Beyləqan) və Hicran Yusifov (Piyadalar) birinciliyin medallarına layiq görüldülər.

Növbəti medallar dəstini 66 kiloqramda Loğman Ağayev (Şəmkir), Merac Rüstəmov (Bərdə), Elvin Həşimov (HHQ) və Kamran Kərimov idman mübarizəsində qazandılar.

74 kiloqramda Kənan Qurbanlı (Bərdə), Cavid Süleymanov (HHQ), Sahib Musazadə (HDQ) və Murad Hüseynli (Şəmkir) bütün rəqiblərindən üstün oldular.

Yasin Sayadov (Şəmkir), Mərdan Qədirli (Bərdə), Səddam Dəmirov (Artilleriya) və Rəhman Hüseynov 84 kiloqramda medallar dəstinə sahib çıxdılar.

96 kiloqramda Elmir İsmayılov (Beyləqan) birinci, Ruslan Kərimov (Şəmkir) ikinci, Natiq İsgəndərov (Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Elvin Axundov isə üçüncü yerləri tutdular.

Sərbəst güləş növündə ən ağır çəki dərəcəsində Rövşən İsgəndərov (Bərdə) birinciliyin qızıl, Əmrah Quliyev (TTM) gümüş, Xətai Mikayılov (Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Fəqan Şahbazov (HHQ) bürünc medallara layiq görüldülər.



Ümumi nəticəyə əsasən, Şəmkir komandası (komandanın rəhbəri mayor Qoşqar Əliyev) birinci, Bərdə komandası (komandanın rəhbəri mayor Hamlet Nəbiyev) ikinci, Hərbi Hava Qüvvələrinin komandası isə (komandanın rəhbəri polkovnik-leytenant Afiq Əliyev) üçüncü yeri tutdular. Kiçik komandalar arasında Təlim və Tədris Mərkəzi bütün rəqiblərindən üstün oldu.



Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik-leytenant Sadiq Paşayev Silahlı Qüvvələr birinciliyinin gedişini şərh edərkən bildirdi:

- Onu deyə bilərəm ki, yarışlar mübariz şəkildə keçdi, idmançılar döşək üzərinə qələbə məqsədilə çıxırdılar. Ancaq təbii ki, hamı qələbə qazana bilməz və iki güləşçidən biri mübarizədən qələbə ilə ayrıla bilər. Belə də oldu. Hesab edirəm ki, ən güclü pəhləvanlar Silahlı Qüvvələr birinciliklərinin qalibi oldular.

Onu da deyim ki, adətən böyük hərbi hissələrdən daha güclü idmançılar Silahlı Qüvvələr birinciliklərində qalib gəlirlər. Amma kiçik hərbi hissələri təmsil edən güləşçilərin arasında da yüksək potensiala malik idmançılar yarışırdılar. Onlardan birincilikdə yüksək yerləri tutanlar da oldu.

Bir faktı qeyd etmək yerinə düşər ki, bu gün hələki Silahlı Qüvvələrimizdə professional səviyyədə idmançı hazırlanmır. Orduda xidmət edən atletlər, güləşçilər əsasən mülkidə yetişmiş idmançılardır. Bununla belə hərbi hissələrdə Silahlı Qüvvələr birinciliyinə həmin idmançıların seçilib hazırlanması yerlərdə idman mütəxəssislərindən həvəs, bacarıq və istək tələb edir. Hansı hərbi hissənin idmançıları yüksək yerləri tuturlarsa, deməli, həmin hissələrdə fiziki hazırlıq və idman işinə daha çox diqqət yetirilir.

Silahlı Qüvvələr birinciliklərinin yekununda bağlanış mərasimi keçirildi, qalib idmançı və komandalar medal, fəxri fərman və diplomlarla mükafatlandırıldılar. Birinci yerləri tutmuş komandalara keçici kuboklar təqdim edildi.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu",
fotolar müəllifindir**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ* (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.**

***Şərur rayonunun Kərki və Cünnüt kəndləri* (17 fevral 1990) - 19 kv.km.**

***Laçın* (17 may 1992-ci il) - 1835 kv.km.**

***Kəlbəcər* (3-4 aprel 1993-cü il) - 1936 kv.km.**

***Ağdam* (23 iyul 1993-cü il) - 1094 kv.km.**

***Cəbrayıl* (18 avqust 1993-cü il) - 1059 kv.km.**

***Füzuli* (23 avqust 1993-cü il) - 1386 kv.km.**

***Qubadlı* (31 avqust 1993-cü il) - 802 kv.km.**

***Zəngilan* (30 oktyabr 1993-cü il) - 707 kv.km.**

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*Yaddaş*

# Həsrət

***Həsrəti ayrılıq yaradır. Ayrılıq ata yurduna, doğma elə-obaya, Vətənə məxsus olanda, daha amansız olur, könül qübarına, can sitəminə dönür. Bəzən üç ayın, beş ayın ayrılığı ruhumuzu canımızdan alır. Bəs ata yurdu, el-obası illərlə düşmənlərin əlində olanlar neyləsin?..***

Bu biçim həsrətə urcah olanların gecəsi gecədi, gündüzü də gecə kimidi. Ayrılıqdan (el arasında belə ayrılığa qara həsrət də deyirlər) gələn sıxılcım can üzür, ruh sarsıdır. Ata yurdu Zəngilanda olanlar da belədi. Onlar qara həsrətə görə 21 ildi Bakıdan, Saatlıdan, Zərdabdan, İmişlidən, ... üzü Zəngilana sarı boylanırlar...

Mənə Azərbaycanımızın hər qarışı kimi Zəngilan da əzizdi. 1993-cü ilin may-oktyabr aylarında (oktyabrın 30-na kimi) orda dəfələrlə uzunmüddətli ezamiyyətdə (hər ezamiyyətdə 20-22 gün) olmuşam. Bəlkə həm də buna görə?..

Nələr görürdüm, nələr duyurdum onda?! Zəngilanın göylərində vurnuxan qara buludları da görürdüm, Şüküratazdan teylənən (teyləndirilən) yöndəmsiz yelləri də, qımıldanan (qımıldadılan) təxribatları da, kişi kimi döyüşənləri, Zəngilanı müdafiə eləyənləri də. Elə o təxribata görə elliklə köç eləmiş Mahrızlıda tək-tənha qalmış Qəfəs nənə də yadımdadı, hər səhər əsasının əlindən tutub qərargaha gələn 80 yaşlı Səməd kişi də. İkinci Ağalı kəndində Şükürün dediklərini də unutmamışam ("...Niyə qaçıram? Erməniyə evmi tikmişəm? Sinçimə, üst-başıma baxıb məni əliyalın, ehtiyatsız adam bilməyin. Gələrsə, düşməni qanına qəltan eləməyə yarağım var"). Qıraq Müşlanda 11 yaşlı Əfsanənin dediklərini də (Əfsanə təxribata uyub qaçan qonşularına deyibmiş ki, getməyin, itiniz dalınızca ulaya-ulaya qalacaq)...

Postlara tələsənlərin, bu günündən sabahlara boylananların, hövsələsizlərin dərdli-dərdli pıçıldadığı "Ağlar günə qalıbsan, ağla, Rəşid Faxralı!.." misralarını unuda bilərəmmi? (Zəngilanı nələrin hədələdiyini duyurdum. Bir şeir yazmışdım: "Ağla, Rəşid Faxralı". Şəmistandanmı, Etibardanmı, Sərvərdənmi, Xaqanidənmi, Əlidənmi, ...sızmışdı, bilmədim. Zəngilanda çoxu bu misraları pıçıldayırdı. Demirdi, pıçıldayırdı). Zəngilanı köçürməyə göndərilən yüzlərlə yük maşınını da gördüm, köçməyə meyillənənləri də, kişi sözü deyənləri də...

Qubadlı, Cəbrayıl işğal olunmuşdu. Tam mühasirədə olan Zəngilan müdafiə olunurdu. Zəngilanlılar da, hərbçilər də, tam məsuliyyəti ilə deyirəm, kişi kimi döyüşürdü...

Zəngilan ağlar günə qalmışdı...

Oktyabrın 29-da Araz çayına üz tutanların arasında bir nənə gördüm. Südəmər nəvəsini belinə şələləmişdi, bir əliylə 5-6 yaşlı nəvəsinin əlindən yapışmışdı, bir əlində balaca bir bağlama vardı. Nəvələrinin pal-paltarından gücü çatan qədər götürmüşdü. Ağlayırdı. Onun səsi - səs deyildi, iniltiydi - ruhumu tar-mar eləmişdi, gözlərimdən yaş dərmişdi...

Olanını-olmazını bir uşaq arabasına yük eləmiş ahıl kişi nənənin səsinə ayaq saxlamışdı. Yanağı boyunca göz yaşları axıtmışdı...

Torpaq Araza sarı tələsənlərin ayağından yapışır, uzaqlaşmağa qoymurdu: "Hara gedirsiniz? Ha-raaa?"...Araz bilmirdimi, torpaq bilmirdimi, görmürdümü gedənlər getməyə məcburdu... Zəngilanlılar son çarə kimi Arazı keçməyə can atırdı.

Həmin gün Arazın ləpədöyənində dünyaya gələn Arazların yaş kağızına "Doğulduğu yer" hara yazılıb görəsən?..

...Gün çıxır. Hərarətdən sular buxarlanır. Buxardan bulud yaranır. Və o bulud zamanında yağışa dönüb torpağa yağır...

Torpaqsevərliyimizdən, Vətənsevərliyimizdən yaranası buludlardan ələnəsi yağışın həsrətindəyik. Yağış yağa, işğalın "cücüyünü çıxarda", qara həsrətin beli qırıla! Zəngilanlılar (digər işğal olunmuş rayonlarımızın camaatı da) ata yurduna dönə. Zəngilana mən də gedəm. Bu dəfə ayrı missiya ilə, bir ayrı yazının işığına. Onda Zəngilanda hamıdan "Gül, ay Rəşid Faxralı! İşğalın, işğalçıların beli qırıldı!" kəlmələrini eşidəm. Orda ruhum yenə Əlinin "Ruhani"sinə sarıla...

Zəngilan işğal olunanda Arazı mən də keçmişdim, ürəyimdə dərd yükü. Zəngilanlılar kimi. O vaxtdan indiyəcən ürəyim də, ruhum da o dərd yükünü daşımaqdadı...

Zəngilanlıların yaşantıları indi "Cəngi" üstə bu misralara köklənib:

***Şəhidlərin göy üzündən enib gələr,***
***Axar suya, daşan selə dönüb gələr.***
***Harayımı qisas bilər, dinib gələr,***
***Sənsiz mənə haram olub ilim-ayım,***
***Zəngilanım!***

Şüküratazdan yenə yellər əsəcək. Bu dəfə Azərbaycanın bayrağını layiq olduğu yüksəkliklərdə dalğalandırmaq üçün!..

**Rəşid FAXRALI,
"Azərbaycan Ordusu"**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 333
Nüsxə 4570